# Qubada 20 Yanvar şəhidləri yad edilib

**Qubada Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və yerli icra oqranlarının birgə təşkilatçılığı ilə "20 Yanvar - müstəqilliyimizin simvolu" adlı tədbir keçirilib.**

Anım mərasimində şəhidlərimizin müqəddəs ruhu birdəqiqəlik sükutla yad edilib. Dövlət komitəsinin Quba-Xaçmaz regional bölməsinin müdir müavini Elnur Ağasiyev, İnsan Hüquqları üzrə Müvəkkilin Şimal regional mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev, din xadimləri və digərləri Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində 20 Yanvar şəhidlərinin rolundan söz açmışlar. Qeyd edilmişdir ki, xalqımızın başına gətirilən faciəyə ilk siyasi-hüquqi qiyməti verən Ümummilli Lider Heydər Əliyev olub. Ulu Öndər 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına baxmayaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etmişdir.

Vurğulanıb ki, xalqımızın azadlığa və zəfərlərə gedən yolunun başlanğıcı məhz 20 Yanvar gecəsi qoyulub. Şərəfli tarixi hadisədə Qubadan da 4 nəfər şəhid olub. Raqib Hüseynov, Elçin Qeybullayev, Mirzə Qəniyev və Müzəffər Həsənovun xatirəsi bu gün də Qubada fəxrlə anılır. Üstündən 35 il keçməsinə baxmayaraq, torpaqlarımızın azadlıq mübarizəsində şəhid olanların hər biri yaddaşlarda əbədi yaşayacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 18 yanvar (№ 11).- S.10.